**2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 oktyabr 2015-ci il tarixli 67 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "Azadlıq-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Teyyublu Xəzər Qardaşəli oğlu 9 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək 27 saylı Sabunçu ikinci seçki dairəsi üzrə namizədliyi həmin blok tərəfindən irəli sürülmüş Əliyev Fuad Ağasi oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarının əsassız olmasını bildirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

X.Q.Teyyublu müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "Azadlıq-2015" siyasi partiyalar bloku tərəfindən F.A.Əliyevin namizədliyi 27 saylı Sabunçu ikinci seçki dairəsi üzrə irəli sürülmüş, seçicilərin imzasını toplanaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim olunmuş, lakin dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Araşdırma ilə əlaqədar deputatlığa namizədlə əlaqə saxlanılmış, ona əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüquqlarının olması izah edilmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş F.A.Əliyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, "Azadlıq-2015" siyasi partiyalar bloku tərəfindən imza vərəqələri və onlara əlavə edilmiş sənədlər dairə seçki komissiyasına təqdim olunarkən Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinin tələbləri pozulmuşdur.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 10 oktyabr 2015-ci il tarixli rəydən görünür ki, deputatlığa namizəd F.A.Əliyev mülkiyyət hüququ əsasında ona məxsus əmlak barədə məlumatı (nəqiliyyat vasitələrini) gizlədərək bu barədə seçki sənədinə düzgün məlumat daxil etməmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən, namizədin qeydə alınması ücün təqdim edilən zəruri seçki sənədlərində məlumatlar düzgün olmadıqda onun qeydiyyatından imtina üçün əsas yaranır.

Qeyd olunanlara əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 27 saylı Sabunçu ikinci seçki dairəsi dairə seçki komissiyasının F.A.Əliyevin namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə 8 oktyabr 2015-ci il tarixli 21/56 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənlər əsas götürülərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 28.4-cü, 58.1.5-ci, 59-cu, 60.2.3-cü, 112-ci, 112-1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar

şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "Azadlıq-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi Teyyublu Xəzər Qardaşəli oğlunun 9 oktyabr 2015-ci il tarixli 67 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və dairə seçki komissiyasının 8 oktyabr 2015-ci il tarixli 21/56 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Arifə Muxtarova

Katib Mikayıl Rəhimov